“Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir”
*Cəlil Məmmədquluzadə*



# ÇIRAQ

30 sentyabr 2018-ci il № 4-5 (253-254) Qəzet 1992-ci ildən çıxır. Siyəzən rayonunun ictimai-siyasi qəzeti. Qiyməti müqavilə yolu ilə

# RƏSMİ XRONİKA

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun avqustun 10-da rəsmi qarşılanma mərasimi olub. Mərasim başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun təkbətək görüşü olub. Nümayəndə heyətlərinin geniş tərkibdə görüşü başa çatandan sonra sənədlərin imzalanması mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında iştirak etmək üçün Qazaxıstanın Aktau şəhərinə səfərə gəlib. Həmin gün Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında sənədlərin imzalanması mərasimi olub.





Avqustun 12-də Aktauda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevlə, İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə görüşü olub.

Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva paytaxtın Xətai rayonunda salınan idman-əyləncə park kompleksində yaradılan şəraitlə tanış olublar.

Azərbaycan Respublikasına səfərə gələn Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin avqustun 25-də rəsmi qarşılanma mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 25-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 132 şagird yerlik Şamaxı rayonu şəhid Aslan Şirinov adına Meysəri kənd tam orta məktəbin yeni binasının açılışında iştirak ediblər.

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxıya səfər çərçivəsində Meysəri kəndindəki «Şirvan şərabları» MMC-nin üzümçülük və şərabçılıq kompleksinin açılışında iştirak ediblər.

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsmayıllı rayonunun Keyvəndi kəndinin ərazisində istifadəyə verilən «AZZA AGRO» MMC-nin 1000 başlıq müasir heyvandarlıq kompleksinin, Muğanlı-İsmayıllı-Mingə-Keyvəndi-Şəbiyan-Bəhliyan avtomobil yolunun, «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin İsmayıllı filialının, yenidən qurulan 110/35/10 kilovoltluq 2x16 MVA gücə malik «İsmayıllı» yarımstansiyasının açılışında iştirak edib.

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsmayıllı rayonuna səfəri zamanı xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edib.

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsmayıllı rayonunda «Buta Qrup» MMC tərəfindən yaradılan aqroparkın, Qaraməryəm-İsmayıllı-Şəki yolunun 5-ci kilometrliyindən ayrılan Kürdmaşı-Kəlbənd-Girk avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışında iştirak edib.

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin Şamaxı rayonunda ucaldılan abidəsini ziyarət edib.

Avqustun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan Dəmirçi Arxeologiya Muzeyinin açılışında, yeni salınan Dəmiçi-Lahıc avtomobil yolunun, İsmayıllı rayonunun Lahıc qəsəbəsində yeni inşa olunan tam orta məktəb binasının, Lahıc qəsəbəsinə təbii qazın verilməsi mərasimində iştirak ediblər.

Avqustun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı Safari Parkında olublar.

Avqustun 28-də Bakı Bulvarının tarixi rəmzlərindən biri olan və yenidən bərpa edilən «Qu quşları» fəvvarə kompleksinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva kompleksin və Bakı Kitab Mərkəzinin açılışında iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin avqustun 30-da ölkəmizə səfərə gələn Gürcüstanın Baş naziri Mamuka Baxtadze ilə görüşü olub.

Sentyabrın 1-dən Azərbaycanda yeni nəsil elektron şəxsiyyət vəsiqələrinin tətbiqinə başlanır. Biometrik göstəriciləri özündə əks etdirən və bir nömrəli yeni nəsil şəxsiyyət vəsiqəsi Prezident İlham Əliyevə təqdim olunub.

Sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri başlayıb. Prezident İlham Əliyevin və Prezident Vladimir Putinin görüşü olub. Soçidə geniş tərkibdə görüş və işçi nahar başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Sammitində iştirak etmək üçün sentyabrın 2-də Qırğız Respublikasına səfərə gəlib.

Sentyabrın 3-də Çolpon-Ata şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov ilə görüşü olub.

Sentyabrın 3-də Qırğız Respublikasının Çolpon-Ata şəhərindəki Çingiz Aytmatov adına «Rux Ordo» Mədəniyyət Mərkəzində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) VI Zirvə görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Yaponiyanın xarici işlər naziri Toqo Kononun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Xorvatiya Respublikasına rəsmi səfərə gəlib. Sentyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə təkbətək görüşü olub. Təkbətək görüş başa çatdıqdan sonra nümayəndə heyətlərinin geniş tərkibdə görüşü və sənədələrin imzalanması mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakının Nizami rayonunun Keşlə qəsəbəsindəki 227 saylı tam orta məktəbdə, Nəsimi rayonunda general-leytenant Kərim Kərimov adına 8 nömrəli tam orta məktəbdə, Səbail rayonunda Həbibbəy Mahmudbəyov adına 2 nömrəli texniki-humanitar liseydə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də ATƏT-in baş katibi Tomas Qremingeri qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də NATO Parlament Assambleyasının sədri Paolo Allinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakının Sabunçu rayonunun Nardaran qəsəbəsindəki 295 nömrəli tam orta məktəbdə, Zabrat qəsəbəsindəki 192 nömrəli tam orta məktəbdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də İsrail Dövlətinin müdafiə naziri Aviqdor Libermanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də TOTAL şirkətinin baş icraçı direktoru Patrik Puyaneni qəbul edib.

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın sentyabrın 15-də rəsmi qarşılanma mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan sentyabrın 15-də Şəhidlər xiyabanını ziyarət ediblər.

Sentyabrın 15-də Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş parad keçirilib. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan paradda iştirak ediblər.

Sentyabrın 15-də Bakının azad olunmasının 100 illiyi ilə bağlı keçirilən təntənəli paraddan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Qız qalasının qarşısına gəldilər, paradda iştirak edən əsgərlərlə görüşdülər, onlarla xatirə şəkli çəkdirdilər.

Sentyabrın 16-da Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak etdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Masallı və Biləsuvar rayonlarına səfəri zamanı Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Masallı Sənaye Məhəlləsinin, «Masallı-Nemətləri» Məhdud Məsuliyyətli Cəmiyyətinin çəltik emalı müəssisəsinin, Masallı rayonunda əsaslı şəkildə yenidən qurulan Şatıroba-Hişkədərə-Miyankü-Kubin-Birinci Səmidxanlı-Xallıcalı-Eminli-Məmmədxanlı avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Biləsuvar rayonunun Zəhmətabad-Bəydili-Xırmandalı-Əliabad avtomobil yolunun, Bayraq Muzeyinin, Gənclər Evinin açılışında iştirak edib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 20-də NATO baş katibinin müavini xanım Rouz Qotemöllerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb

Sentyabrın 21-də Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclas keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Bakıda cüdo üzrə dünya çempionatı davam edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri sentyabrın 22-də Milli Gimnastika arenasında keçirilən yarışları izləyiblər.

**AZƏRTAC**

*Şura iclasında*

# YARIMİLLİYİN YEKUNLARI MÜZAKİRƏ EDİLMİŞDİR

**Ay aya calanır, zaman öz sözünü deyir. 2018-ci ilin birinci yarısı da artıq yaddaşlara yazıldı, geridə qaldı.**

**Qısa da olsa ötən ayların Siyəzən rayonunun tarixində hansı göstəricilərlə yazıldığını nəzərdən keçirək.**



İqtisadi göstəricilər göz qabağındadır. İnamla söyləyə bilərik ki, 2018-ci ilin birinci yarısında da ölkəmizin hər yerində olduğu kimi, rayonumuzun da iqtisadiyyatı uğurla inkişaf etmişdir. İqtisadiyyatın əsas sahələri üzrə ümumi məhsul buraxılışı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 12,6 faiz artmışdır. Ümumi məhsul buraxılışının 48,3 faizi kənd təsərrüfatının, 23,1 faizi tikintinin, 15,0 faizi sənayenin, 12,9 faizi ticarətin, 0,7 faizi nəqliyyat və rabitə sektorunun payına düşmüşdür. Ümumi məhsul buraxılışında qeyri-neft sektorunun xüsusi çəkisi 71,0 faiz təşkil etmişdir.

Bəli, rayonumuzda ötən altıaylığın yekunları uğurlu olubdur. Bütün bunlar barəsindəsə Siyəzən Rayon İcra Hakimiyyəti başçısı yanında Şura iclasında ətraflı danışılmışdır.

Tədbirdə Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov «Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası ilə əlaqədar Siyəzən rayonunda 2018-ci ilin birinci yarısında görülmüş işlər və qarşıda duran vəzifələr haqqında» məruzə etmişdir.

Cənab A. Hüseynov bildirmişdir ki, rayonumuzda əhalinin pul gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,2 faiz, adambaşına düşən məbləğ isə 3,6 faiz artaraq 1347,0 manata çatmışdır.

Ötən müddət ərzində rayonda 337 iş yeri, o cümlədən 185 daimi, 152 müddətli iş yeri açılmışdır. Daimi iş yerlərindən 3 iş yeri yeni yaradılmış müəssisə və təşkilatlar, 182 iş yeri fiziki şəxslər tərəfindən yaradılmışdır.

2018-ci ilin birinci yarısında sənaye fəaliyyəti ilə məşğul olan subyektlər tərəfindən istehsal edilmiş məhsulun həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 53,5 faiz çoxdur. Ümumi istehsalın 72,8 faizi sənaye malları istehsalından, 27,2 faizi sənaye xarakterli xidmətlərdən ibarət olmuşdur. Məhsul istehsalı və xidmətlərin ümumi həcminin 37,1 faizi dövlət mülkiyyətinin, 62,9 faizi xüsusi mülkiyyətin payına düşmüşdür.

2018-ci ilin altıaylığında bütün mülkiyyət növləri üzrə, o cümlədən, əhalinin şəxsi vəsaiti də daxil olmaqla iqtisadiyyatın və sosial sahələrin inkişafına 36 milyon 473,1 min manat investisiya yönəldilmişdir ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 82,9 faiz çoxdur. İstifadə edilmiş investisiyanın 25 milyon 098,0 min manatı və ya 68,8 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir.

Ümumi investisiyanın 29,9 faizi Dövlət Neft Şirkəti tərəfindən mədənçıxarma sənayesinin inkişafına, 23,7 faizi Azərişıq Açıq Səhmdar Cəmiyyəti tərəfindən rayonun elektrik enerjisi təminatının yaxşılaşdırılması və elektrik verilişi xətlərinin yenidən qurulmasına, 20,8 faizi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən avtomobil yollarının tikintisi, yenidən qurulması və əsaslı təmirinə, 18,5 faizi Milli su təchizatı və kanalizasiya xidmətləri üzrə ikinci layihənin həyata keçirilməsinə və 2,4 faizi Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin həyata keçirilməsi üzrə işçi qrupu tərəfindən suvarma sisteminin yenidən qurulmasına, 2,1 faizi əhalinin şəxsi vəsaiti ilə fərdi yaşayış evlərinin tikintisinə, 2,6 faizi digər tikinti işlərinə sərf edilmişdir.



Ölkəmizin hər yerində olduğu kimi, son illər rayonumuzda da aqrar sahənin inkişafı diqqət mərkəzindədir. Bunu rəqəmlərə nəzər yetirdikdə də açıq-aydın hiss etmək mümkündür. Kənd təsərrüfatı sahəsinə toxunan məruzəçi vurğulamışdır ki, altıaylıqda rayon üzrə 52 milyon 496,0 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir. Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 12,1 faiz çoxdur.

Cənab Asif Hüseynov qeyd etmişdir ki, ümumilikdə iqtisadiyyatda dinamik inkişaf təmin edilmiş, Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələr layiqincə yerinə yetirilmişdir. Görülən işləri əhatəli təhlil edən rayon rəhbəri qarşıda duran vəzifələrə də toxunmuş, ayrı-ayrı idarə, müəssisə və təşkilatların fəaliyyətindən də bəhs etmişdir.

Yığıncaqda müzakirə olunan məsələ ətrafında çıxışlar dinlənilmiş, birinci yarımilliyin yekunlarından bəhs edilmişdir. Çıxışlarda görülmüş işlərlə yanaşı, mövcud çatışmazlıqlardan da danışılmışdır.

Sonda müzakirə olunan məsələ ilə bağlı qərar qəbul edilmişdir.

**«ÇIRAQ»**

## Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatında vətəndaşların qəbulu CƏDVƏLİ

| Sıra № | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü | Qəbul saatı |
|---|---|---|---|---|
| 1 | Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı | Hüseynov Asif Həbib oğlu | çərşənbə axşamı | saat 11:00-dan başlayır |
| 2 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Əliyev Zəfər Nüsrət oğlu | bazar ertəsi | saat 14:00-dan başlayır |
| 3 | Başçının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Bəxtiyarova Təhminə Vahid qızı | çərşənbə | saat 14:00-dan başlayır |
| 4 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | Bəşirov Xaqani Paşa oğlu | cümə | saat 11:00-dan başlayır |
| 5 | Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar | Növruzov Səxavət Mehdi oğlu | bazar ertəsi | saat 10:00-dan başlayır |
| 6 | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri | Mursaquliyev Feyyaz Lətifulla oğlu | cümə axşamı | cümə axşamı |
| 7 | İnformasiya təminatı və təhlil sektorunun müdiri | Mürvətov Rəhman Nəcməddin oğlu | çərşənbə | saat 10:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.
2. Rayon İcra Hakimiyyəti başçısının qəbulu günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.
3. Vətəndaşların qəbulu ilə əlaqədar əlaqə telefonu: (23) 304-00-10

## Siyəzən Rayon İcra Hakimiyyəti başçısının 2018-ci ilin oktyabr ayında keçirəcəyi səyyar qəbulların QRAFİKİ

| S. №-si | Qəbulun keçiriləcəyi yer | Tarix | Saat |
|---|---|---|---|
| 1. | Beşdam kəndi, kənd ümumi orta məktəbin binası | 05-10-2018 | 12-00 |
| 2. | Eynibulaq kəndi, kənd tam orta məktəbin binası | 12-10-2018 | 12-30 |
| 3. | Balaca Həmyə kəndi, kənd tam orta məktəbin binası | 19-10-2018 | 12-30 |
| 4. | Qərəh kəndi, açıq havada | 26-10-2018 | 12-00 |

## Dövlət orqanlarının yerli qurumlarında vətəndaşların qəbulu CƏDVƏLİ

| S. №-si | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü və saatı |
|---|---|---|---|
| 1. | Siyəzən Rayon Gənclər və İdman İdarəsinin rəisi | Məmmədov Nadir Əmrulla oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 2. | Siyəzən Rayon Təhsil Şöbəsinin müdiri | Hacıyev Rəfail Məmmədrıza oğlu | Bazar ertəsi günü, saat 10:00 dan başlayır |
| 3. | Siyəzən Telekommunikasiya Qovşağının rəisi | Kəbirov Rafiq Kəbir oğlu | Hər iş günü, saat 15:00-dan başlayır |
| 4. | Siyəzən Regional Müalicə Diaqnostika Mərkəzinin baş həkimi | Hümbətov Dadaş Ümüd oğlu | Hər iş günü, saat 11:00-dan başlayır |
| 5. | Siyəzən rayon Mərkəzi Poliklinikanın baş həkimi | Quliyev Əhməd Əli oğlu | Hər iş günü, saat 10:00-dan başlayır |
| 6. | Siyəzən rayonu Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru | Yaqubov Mehman Nəcməddin oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 7. | Xaçmaz Regional Qaz İstismar İdarəsinin Siyəzən Xidmət Sahəsi üzrə rəis müavini | Cəfərov Natiq Xəlil oğlu | Çərşənbə axşamı və cümə axşamı günü, saat 15:00-dan başlayır |
| 8. | Xaçmaz Regional Sukanal idarəsinin Siyəzən abonent işləri sahəsinin rəisi | Cabbarov Eldar Pənah oğlu | Çərşənbə axşamı və cümə günü, saat 15:00-dan başlayır |
| 9. | Dövlət Sosial Müdafiəsi Fondunun Siyəzən rayon şöbəsinin müdiri | Yusifova Kamilə Şəmsəddin qızı | Çərşənbə axşamı və cümə axşamı günü, saat 10:00-dan başlayır |
| 10. | Siyəzən Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin direktor əvəzi | Allahyarov Bəybala Ağa oğlu | I, III, IV günlər, saat 11:00 dan başlayır |
| 11. | Siyəzən Rayon Kənd Təsərrüfatı İdarəsinin rəis əvəzi | Hüseynov Ənvər Əlbala oğlu | Hər iş günü saat 10:00-dan başlayır |
| 12. | Siyəzən rayon Baytarlıq İdarəsinin rəisi | Qasımov Seyfulla Eynulla oğlu | Çərşənbə günü, saat 10:30-dan başlayır |
| 13. | Siyəzən rayon Məşğulluq Mərkəzinin direktoru | Heydərov Etibar Murad oğlu | Çərşənbə günü, saat 10:00-dan başlayır |
| 14. | Siyəzən rayonu üzrə Maliyyə Şöbəsinin rəisi əvəzi | Əlibəyov Rəsul Bilal oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 15. | «Azərpoçt» MMC-nin Siyəzən Poçt Filialının rəisi | Əliyev Akif Hacı oğlu | Bazar ertəsi və cümə axşamı günü, saat 14:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.

*Səyyar qəbullar davam edir*

# SAKİNLƏR RAZILIQ ETMİŞLƏR

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynovun səyyar qəbulları davam etməkdədir. Rayonun ayrı-ayrı yaşayış məntəqələrində keçirilən səyyar görüşlər əhali tərəfindən razılıqla qarşılanır.

Cənab A. Hüseynov avqust-sentyabr aylarında Məşrif inzibati ərazi vahidliyinə daxil olan kəndlərin sakinləri ilə görüşlər keçirmişdir. Başçı onları dinləyərək problemlərlə, narahatlıq doğuran məsələlərlə tanış olmuşdur.

Sakinləri narahat edən məsələlərin əksəriyyəti elə yerindəcə öz müsbət həllini tapmışdır. Belə ki, sakinlərin qeyd etdikləri şikayətlərlə bağlı aidiyyatı idarə, müəssisə və təşkilatların rəhbərlərinə rayon rəhbəri tərəfindən tapşırıqlar verilmişdir.



Səyyar görüşlər zamanı sakinlər onların gündəlik məişət qayğıları və problemləri ilə yaxından maraqlandığına görə rayon rəhbərliyinə, şəxsən cənab Asif Hüseynova öz minnətdarlıqlarını bildirmişlər.

**«ÇIRAQ»**

# ŞANLI SƏHİFƏ

15 sentyabr-Azərbaycan tarixinin ən şərəfli günlərdən biri. Bakının Qafqaz İslam Ordusu tərəfindən bolşevik-erməni işğalından azad edilməsinin 100 illiyi münasibətilə paytaxtımızın Azadlıq Meydanında möhtəşəm parad keçirilmişdir.

Azərbaycan və Türkiyə Respublikalarının Prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın, birinci xanım Mehriban Əliyevanın iştirak etdiyi parad həm də dünyaya bir mesaj oldu: iki qardaş xalqın birlik, həmrəylik, dostluq mesajı İlham Əliyevin paradın açılışında dediyi kimi; «Yüz il bundan əvvəl biz bir yerdə idik, bu gün də biz bir yerdəyik»

# TƏHSİL İŞÇİLƏRİNİN ƏNƏNƏVİ SENTYABR KONFRANSI



2017-2018-ci dərs ilində rayonumuzda 24 ümumtəhsil məktəbi fəaliyyət göstərib. 6657 nəfər şagirdin təlim-tərbiyəsi ilə 728 nəfər müəllim məşğul olub. Bütün dərs ili boyu həm ümumtəhsil müəssisələrində, həm də məktəbdənkənar tədris müəssisələrində təhsilin səmərəliliyinin artırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi, ixtisaslı kadrlara ciddi ehtiyac duyulan ucqar kəndlərin pedaqoji kadrlarla təmin edilməsi istiqamətində intensiv iş görülmüşdür. Məhz görülmüş işlərin nəticəsidir ki, ötən tədris ilində də rayonumuzun şagirdləri respublika fənn olimpiadalarında, müxtəlif yarış və müsabiqələrdə fəal iştirak ediblər.

Bütün bunlar barəsində rayonumuzun təhsil işçilərinin ənənəvi sentyabr konfransında geniş bəhs edilmişdir.

Siyəzən rayon Təhsil Şöbəsinin müdiri R. Hacıyev konfransda hesabat məruzəsi ilə çıxış etdi. Çıxış zamanı ötən tədris ilində görülmüş işlər ətraflı təhlil edildi.



Konfrans iştirakçılarının diqqətinə çatdırıldı ki, orta ümumtəhsil məktəblərini bitirmiş 351 nəfər məzundan 271 nəfəri ali məktəblərə qəbul imtahanlarında iştirak etmişdir. Ümumilikdə 177 nəfər məzun ali məktəblərə qəbul olmuşdur ki, onların 154 nəfəri bu ilki məzunlardır. 9 nəfər məzun ölkənin hərbi yönümlü müxtəlif ali məktəblərinə, 49 nəfəri isə orta-ixtisas məktəblərinə qəbul olubdur.

Gənclərdən 13 nəfəri 600 və daha çox yüksək, ümumilikdə isə 29 nəfər 500-dən yüksək bal toplamışdır. Ümumiyyətlə, ali məktəbə qəbul üçün ərizə vermiş 284 nəfər 2018-ci il məzunundan 155 nəfəri tələbə adını qazanmış, qəbul olma faizi 54,57 faiz olmuşdur. Bu göstərici orta respublika göstəricisindən xeyli yüksəkdir.

Məruzə ətrafında müzakirələrdə Siyəzən şəhər 1 saylı tam orta məktəbin direktoru, Əməkdar müəllim Nəcməddin Mürvətov, Gil-gilçay qəsəbə tam orta məktəbin müəllimi Könül Məmmədova, Siyəzən şəhər 2 saylı tam orta məktəbin direktor müavini Sevda Ağakərimova çıxış etdilər. Məruzə ətrafında müzakirələr zamanı çıxış edənlər qazanılan uğurları respublikada təhsil sistemində aparılan islahatların nəticəsi kimi qiymətləndirdilər. Belə ki, sözün həqiqi mənasında ölkə başçısı möhtərəm İlham Əliyevin böyük diqqət və qayğısı sayəsində son illər ərzində təhsil sistemimiz kifayət qədər dəyişdi, strateji hədəflər müəyyən olundu.

Azərbaycan Təhsil Nazirliyinin şöbə müdirinin müavini, professor Əsgər Quliyev müəllimləri salamlayaraq müasir dövrdə ümumtəhsil məktəblərinin qarşısında duran ən mühüm vəzifələrə toxundu, tələbə adını qazanmış gəncləri təbrik etdi.

Konfransın işində iştirak edən Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynov yeni dərs ilinin başlanması münasibətilə müəllimləri təbrik etmiş, qarşıda duran vəzifələrdən danışmışdır.

Tədbirin sonunda ali təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək nəticələr əldə etmiş gənclərdən bir qrupuna rayon rəhbərliyi adından fəxri fərmanlar və pul mükafatları təqdim olundu. Qabaqcıl müəllimlərdən də bir neçəsinə rayon rəhbərliyi tərəfindən fəxri-fərmanlar verildi.

**«ÇIRAQ»**

*Azərbaycan Respublikası Prokurorluq orqanlarının 100 illik yubileyi qarşısında*

# QANUNUN ALİLİYİ BAŞLICA ŞƏRTDİR

***«Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edərdim ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız. Arzu edərdim, çalışasınız ki, Azərbaycan vətəndaşı kimi, eyni zamanda Azərbaycan prokuroru kimi hörmətli, şərəfli olasınız. Azərbaycan prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır.»***

***Heydər ƏLİYEV,***
***ümummilli lider.***

Hər il oktyabr ayının 1-də Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşları öz peşə bayramlarını təntənə ilə qeyd edirlər. Bu günün qeyd olunması tarixi zərurətdən yaranmışdır. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlamasını əsas tutaraq hər il oktyabr ayının 1-ni Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə 17 iyul 1998-ci il tarixli Sərəncam imzalamışdır.

Müstəqil Azərbaycan dövlətində prokurorluq orqanlarının tarixi Azərbaycan Xalq Cümhuriyyətinin yaranması günündən başlamışdır. 1918-ci il noyabrın 18-də Nazirlər Şurası tərəfindən «Azərbaycan Məhkəmə Palatası haqqında Əsasnamə» təsdiq edilmişdir. F. Xoyski, X. Xasməmmədov, A. Səfikürdski, T. Makinski Azərbaycan Xalq Cümhuriyyətinin ədliyyə nazirləri, eyni zamanda baş prokurorları olmuşlar. Olduqca mürəkkəb və ağır şəraitdə fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyətinin Palatasında, Bakı və Gəncə dairə məhkəmələrinin tərkibində olan prokurorluq orqanları öz səlahiyyətləri imkanında böyük işlər görmüşlər.

Yaşlı nəsil yaxşı xatırlayır. Keçmiş SSRİ kimi nəhəng imperiyada rüşvətxorluğa və korrupsiyaya qarşı total mübarizə tədbirlərini ilk dəfə məhz Heydər Əliyev başlamışdır. 70-ci illərin əvvəllərindən başlayaraq Ulu Öndərimiz acı həqiqətləri gizlətməməyin, problemi doğuran səbəbləri aradan qaldırmağın tərəfdarı kimi çıxış etmişdir.

Rüşvətxorluğa, oğurluğa, mənəviyyata zidd digər təzahürlərə qarşı amansız mübarizə aparan H. Əliyev 70-80-cı illərdə 10 mindən artıq gənci keçmiş SSRİ respublikalarının ali məktəblərinə təhsil almağa göndərmişdi. Əsas məqsəd elmin digər sahələri ilə yanaşı, yüksək ixtisaslı hüquqşünas kadrların hazırlanması, hüquq-mühafizə orqanlarının sağlamlaşdırılması idi. Ulu Öndər daima daxili işlər, prokurorluq, məhkəmə orqanlarında yüksək mənəviyyatlı insanların yerləşdirilməsinə çalışır, peşəkarlıqla yanaşı ədalətlilik, təmizlik, düzgünlük kimi vacib meyarları da əsas götürürdü.

Ulu Öndərin 70-ci illərin sonunda «Literaturnaya qazeta»ya verdiyi məşhur «Qoy ədalət zəfər çalsın!» sərlövhəli müsahibə cəmiyyətdə böyük rezonans doğurdu. Adıçəkilən müsahibədə H. Əliyev respublika həyatı ilə bağlı ən müxtəlif məsələlərə toxunmuş, hüquq-mühafizə orqanlarındakı nöqsanları göstərmişdir.

H. Əliyev çox sonralar-2000-ci ilin 22 iyulunda jurnalistlərlə görüşündə «Literaturnaya qazeta»ya verdiyi məşhur müsahibəsini xatırlayaraq demişdir: «Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olmağıma baxmayaraq, mən həmin müsahibədə sovet hakimiyyətinin, cəmiyyətinin işində olan mənfi halların hamısını açıb göstərmişdim. Xatirimdədir, o vaxt Andropov SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin sədri, həm də Siyasi Büronun üzvü idi. O, bir neçə gündən sonra mənə telefon etdi. Dedi ki, sənin bu müsahibən böyük bir sensasiya yaradıbdır. Soruşdum ki, nə mənada? Cavab verdi ki, müsbət də var, mənfi də var. Soruşuram ki, nəyi müsbətdir, nəyi mənfidir? Deyir ki, müsbət odur ki, insanlar bizim cəmiyyətdəki bu yaraları görürlər və sevinirlər ki, kimsə cəsarət edib bunları açıq deyir. Özü də bunu aşağıda yox, ən yüksək vəzifədə çalışan bir adam deyir. Amma bunun əleyhinə olanlar da var. Soruşuram ki, niyə? Bildirir ki, çünki onlar bunun açılmağını istəmirlər.»

Ulu Öndərin ikinci dəfə hakimiyyətdə olduğu müddət ərzində Azərbaycanda hüquqi dövlətin formalaşması və bu əsasda onun mühüm beynəlxalq qurumlarda layiqincə təmsil olunması üçün əvəzsiz xidmətləri olmuşdur. Ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi altında 1995-ci ildə yeni Konstitusiya layihəsi hazırlanmış və referendum yolu ilə qəbul edilmişdir. Azərbaycan Respublikasının Konstitusiyasında əks olunan müddəalar respublikamızın gələcək inkişafının mühüm istiqamətlərini müəyyənləşdirmiş, Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət olmasını bəyan etmiş, insan hüquq və azadlıqlarının prioritetliyini ön plana çəkməklə ölkənin gələcək inkişaf modeli üçün hüquqi baza yaratmışdır. Məhz bundan sonra respublikada bir çox sahələri əhatə edən onlarca yeni qanun və Məcəllələr qəbul edilmişdir.

Əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş islahatları inamla davam etdirən dövlət başçısı İlham Əliyev qısa müddətdə məhkəmə-hüquq islahahatları ilə paralel şəkildə prokurorluq orqanlarının da insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, dövlət ittihamının tam demokratik, şəffaf və azad şəkildə həyata keçirildiyi ali instansiyaya çevrilməsinə, cəmiyyətdə yüksək etimad qazanmasına çalışmışdır. Başlıca məqsədsə prokurorluğun insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsinə çevrilməsini təmin etmək, onun mütəşəkkil cinayətkarlıqla, o cümlədən korrupsiya ilə mübarizədə imkanlarını daha da genişləndirməkdir.

Prokurorluq əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi, onların fəaliyyətinin stimullaşdırılması istiqamətində bir sıra mühüm sərəncamlar imzalanmışdır. «Korrupsiyaya qarşı mübarizə haqqında» qanun qəbul edilmişdir.

Son illər möhtərəm Prezidentimiz cənab İham Əliyevin rəhbərliyi altında ölkəmizdə aparılan böyük quruculuq və inkişaf işləri hər bir sahədə olduğu kimi, prokurorluq orqanlarında da daim hiss olunmaqdadır. Dövlətçiliyimizin daha da möhkəmləndirilməsi baxımından prokurorluq orqanları qarşısında çox mühüm vəzifələr durur. Dövlətimizin başçısının prokurorluq orqanlarına göstərdiyi etimad və inamın məsuliyyətini dərindən dərk edən biz prokurorluq əməkdaşları üzərimizə düşən bütün vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışırıq.

**Murad KAZIMOV,**
**Siyəzən rayon prokuroru,**
**Baş ədliyyə müşaviri.**

*20 sentyabr neftçilərin peşə bayramı günüdür*

# SİYƏZƏN NEFTÇİLƏR ŞƏHƏRİDİR



20 sentyabr neftçilərin ənənəvi peşə bayramı ərəfəsində «Siyəzənneft» NQÇİ-də olduq. Rəis Zülfüqar Səlimovla söhbət bizdə sabaha nikbin əhval-ruhiyyə yaratdı. Müssisə iqtisadiyyatımızın bu mühüm sahəsinin inkişafı ilə bağlı bütün mövcud imkanlardan yararlanır, işçi qüvvəsindən lazımınca istifadə olunur, əmək intizamına da kimsə qüsur tuta bilməz. Lazımi mədən avadanlıqları ilə vaxtlı-vaxtında təminat da öz yerində.

*Və bu məqamda bir xoş xəbəri də nəzərinizə çatdırmaq istərdik. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Respublikasında neft sənayesində uzunmüddətli səmərəli fəaliyyətinə görə Səlimov Zülfüqar Abdurəhim oğlu "Tərəqqi" medalı ilə təltif edilmişdir. Təbrik edirik!*

Elə söylədiklərimizin nəticəsidir ki, adıçəkilən müəssisə neft və qaz çıxarılması üzrə aylıq dövlət plan tapşırıqlarının öhdəsindən layiqincə gəlir. Baş mühəndis Ayaz Bağırov da bu günün göstəriciləri ilə kifayətlənməyib sabaha böyük inamla baxdığını diqqətimizə çatdırdı.



Mütəxəssislər Siyəzəndə neftli layların hələ də öz kəşfini gözlədiyini söyləyirlər. Siyəzən monoklinalında «qara qızıl» tükənməyibdir. Yeni neftli süxurların axtarışları sabahkı uğurlara ünvanlanan addımdır.

Ali təhsilli neftçi İkram Abdullayev 1994-cü ildən «Siyəzənneft» NQÇİ-də əmək fəaliyyətinə başlayıbdır.



Bu illər ərzində neft və qazçıxarma üzrə usta, sahə rəisinin müavini işləyib. 2011-ci ildənsə 2 saylı neft-qazçıxarma sahəsinə rəhbərlik edir. Kollektiv layların neftverimini artırmaq məqsədilə geoloji-texniki tədbirlərin gücündən lazımınca istifadə edir, işlək quyu fonduna ciddi nəzarət olunur, fəaliyyətini azaldan, yaxud dayanan quyuların təmir edilib həyata qaytarılması diqqət mərkəzindədir. Bir sözlə, hər bir işçi üzərinə düşən işin öhdəsindən layiqincə gəlməyə çalışır.

Coşqun Mayılov əvvəllər Abşeron Qazma İşləri idarəsində çalışıb.



Rəis müavinliyinədək qazmaçı köməkçisi, qazmaçı peşələrində işləyib. Necə deyərlər, bu sahənin əsl mütəxəssisidir. 2009-cu ildənsə «Siyəzənneft» NQÇİ-də rəis müavinidir. Deyir ki, rayonumuzun iqtisadiyyatında neft-qazçıxarma başlıca yer tutur. Əhalinin böyük əksəriyyətinin yaşayışı, dolanışığı bu müəssisə ilə bağlıdır. Odur ki, bu gün bizim hər birimizin pis işləməyə, yaxud laqeydlik göstərməyə haqqımız yoxdur.

İdarədə MMTX-nin xidmət rəisi Abutalıb Məmmədov Siyəzəndə doğulub boya-başa çatdığından çoxsaylı neftçilər ailəsinin problemlərindən, qayğılarından yaxşı xəbərdardır.



1994-cü ilin 20 sentyabrında imzalanan və «Əsrin müqaviləsi» adlandırılan neft müqavilələri ilə gənc və müstəqil Azərbaycan Respublikasının dünya birliyində çox güclü tərəfdaşlar, müttəfiqlər qazandığını söyləyən A. Məmmədov neftçi peşəsinin çox şərəfli olduğunu qeyd etdi.

Bəli, neftçilər ailəsinin hər bir üzvü öz işi ilə fəxr edir. Rafiq Həşimov neft və qaz hasilatı üzrə operatordur.



Mədənçilər onu öz işinin ustası kimi tanıyırlar. Uzun illərdir ki, 2 saylı neft-qazçıxarma sahəsində işləyir. İşinə yüksək tələbkarlığı, şəxsi intizamı ilə həmişə nümunə olub. Sahədəki quyuların işlək fəaliyyəti, hasilatın sabit saxlanılması operatorların öz işinə necə yanaşmasından çox asılıdır. Rafiq yaxşı bilir ki, istehsal göstəricilərinin bir qədər də artıq olması fikri hər bir mədənçini narahat etməlidir.

Artıq sentyabrı başa vurmaq üzrəyik. Üzü qızılı payıza gedirik. Qızıl payızdan xəbər verən gah soyuq, gah da isti günlərimizdə «qara qızıl» ustalarımız özlərinin peşə bayramlarını qeyd edirlər.

1994-cü ilin 20 sentyabr tarixindən bizi düz 24 illik zaman kəsiyi ayırır. Bu gün «Əsrin müqaviləsi»nin uğurla reallaşması əfsanənin həqiqətə çevrilməsi qədər maraqlıdır. Dünyanın söz sahibi olan inkişaf etmiş demokratik dövlətlərinin rəsmiləri çox haqlı olaraq bu layihənin əsas memarı Heydər Əliyevi sayırlar. Zaman və həyat bir daha göstərdi ki, məhz onun iradə əzmi ilə reallaşan layihə ölkəmizin işıqlı sabahına hesablanmışdır. Ümummilli liderimizin uzaqgörən və alternativsiz siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**R. MURADOVA.**

# GÖRÜLƏSİ İŞLƏR ÇOXDUR

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2018-ci illər üçün Dövlət Proqramı»nda nəzərdə tutulmuş tapşırıqların icrasını təmin etmək məqsədilə Kooperasiyaların yaradılması istiqamətində və kənd təsərrüfatının inkişaf etdirilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarına veriləcək subsidiyalar, güzəştli şərtlərlə gübrə satışı, kənd təsərrüfatı təyinatlı əkinə yararlı torpaqlardan səmərəli istifadə olunması üçün əhalinin maarifləndirilməsi məqsədi ilə rayonun Eynibulaq, Sədan, Dağ Quşçu və Ərziküş kəndlərində kənd təsərrüfatı məhsulları istehsalçıları ilə görüşlər keçirilmişdir.

Rayon üzrə 2018-ci ilin məhsulu üçün ötən ilin payızında kənd təsərrüfatı məhsulları istehsalçıları tərəfindən 6156 ha şum qaldırılmış və bu göstərici keçən ilin müvafiq dövründən 41 faiz çox olmuşdur. Rayon üzrə 3360 ha əkin sahəsində payızlıq buğda və 2796 ha əkin sahəsində payızlıq arpa əkilmişdir. 2018-ci ilin məhsulu üçün 41 ha dən üçün qarğıdalı, 24 ha noxud, 39 ha kartof, 145 ha tərəvəz, 80 ha ərzaq üçün bostan, 25 ha şəkər çuğunduru və 110 ha yonca əkilmişdir.

2018-ci ilin ilk 8 ayı ərzində 224 ton azot, 66 ton ammofos, 22 ton nitroammofos və 8,4 ton karbomid gübrəsi, alağa qarşı 34 litr Renumbra pestisidi 250 nəfər kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli şərtlərlə satılmışdır.

«Aqrolizinq» ASC-nin Xaçmaz regional nümayəndəliyinin Siyəzən-Xızı bölməsi tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına mineral gübrələrin, biohomusun və pestisidlərin satılması qaydalarına uyğun 2018-ci ilin ilk 8 ayı ərzində gübrə almış hüquqi və fiziki şəxslər haqqında icmal siyahılar tərəfimizdən təhlil edilmiş, Respublika Komissiyasına təqdim olunmuşdur.

Rayonda heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması, yüksək məhsuldar genetik potensialı olan heyvanların süni mayalanma yolu ilə baş sayının artırılması məqsədilə cari ilin ilk 8 ayı ərzində 224 baş heyvan süni yolla mayalanmış, 2017-ci il ərzində mayalanmış heyvanlardan 108 baş bala alınmışdır. Süni mayalanma yolu ilə alınmış hər buzova görə subsidiyanın verilməsi Qaydasına uyğun olaraq 2018-ci ilin 6 ayı ərzində doğulmuş 77 baş sağlam buzova görə 7700 manat vəsait heyvan sahiblərinin cari bank hesablarına köçürülmüşdür. Rayon ərazisində süni mayalanmış heyvanlar və süni mayalanma yolu ilə alınmış sağlam buzovlar haqqında məlumatların Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində qeydiyyatı aparılmışdır.

Kənd Təsərrüfatı məhsulları istehsalçılarına əkin sahələrinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik əkininə görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydalarına uyğun kənd ərazi komissiyalarından 1231 sənəd qəbul edilmişdir. Kənd təsərrüfatı məhsulları istehsalçılarına subsidiyaların ödənilməsi üçün icmal siyahılar hazırlanmış, Respublika Komissiyasına təqdim olunmuşdur. Rayon üzrə 1231 istehsalçıya 426122 manat subsidiya hesablanmış və istehsalçıların bank kartlarına köçürülmüşdür.

Rayonda 2018-ci ilin məhsulu üçün taxıl biçini kompaniyası başa çatmışdır. 2796 hektar arpa, 3360 ha buğda sahəsi biçilmişdir. Məhsuldarlıq buğdada 20,4 sentner, arpada 15,6 sentner olmuşdur.Ümumilikdə rayon üzrə taxılın orta məhsuldarlığı 18,3 sentner təşkil edib. Bu da ötən illə müqayisədə 5,8 sentner azdır (24% azdır). Məhsuldarlığın aşağı olmasına səbəb havaların quraq keçməsi və may ayının əvvəllərində 5 gün isti küləklərin əsməsi taxılın fizioloji yetişkənlik dövründə dənin tam dolmasına mənfi təsir göstərmişdir. Suvarılacaq torpaq sahələrinə suvarma suyunun vaxtında verilməməsi, biçin vaxtı kombayn çatışmazlığı, növbəlilik prinsiplərinə əməl olunmaması məhsuldarlığın aşağı düşməsinin başlıca səbəblərindəndir.

Görülmüş məqsədəuyğun tədbirlər nəticəsində Respublikamızda aqrar sektorun inkişafı üçün yaradılmış əlverişli şəraitdən bəhrələnərək rayonumuzda da bu sahənin inkişafına bütün səy və bacarığımızla çalışacağıq.

**Ənvər HÜSEYNOV,**
**Siyəzən rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru.**

# HƏR İL OLDUĞU KİMİ

Hər il bütün müsəlman dünyasında böyük təntənə və sevgi ilə qeyd olunan Qurban bayramı həm də birliyimizin, həmrəyliymizin rəmzidir. Təqdirəlayiqdir ki, bu müqəddəs bayram ölkəmizdə də dövlət səviyyəsində təntənə ilə qeyd edilir.

Rayonumuzda da Qurban bayramının əziz və müqəddəs bayram kimi keçirilməsi daim rəhbərliyin diqqət mərkəzindədir. Həmişə olduğu kimi, bu ilki Qurban bayramı günlərində də şəxsən Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynovun təşəbbüsü ilə xeyli sayda qurbanlıq heyvan kəsilmişdir. Rayonda yaşayan şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə, aztəminatlı ailələrə, tək, ahıl vətəndaşlara bayram payı verilmişdir.

Bayram günlərində dindarlar dini ayinləri yerinə yetirmiş, şəhidlərimizin, dünyasını dəyişmiş insanların xatirəsi böyük ehtiramla yad edilmişdir.

İnsanlar qurban kəsməklə yanaşı, həm də Allahdan dövlətimizlə, Qarabağımızla bağlı dualar etmişlər. Mübarək Qurban bayramında onları yaddan çıxarmayan rayon rəhbərliyinə razılıqlarını bildirmişlər.

**«ÇIRAQ»**

***Tanış olun!***

# YÜKSƏK NƏTİCƏLƏR GÖSTƏRMİŞ MƏZUNLAR

**Ramazanov Əli Telman oğlu-682 bal.**

Siyəzən şəhər C. Cabbarlı adına 1 saylı tam orta məktəbi bitirib. Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinin I kurs tələbəsidir. «Əlaçı» televiziya müsabiqəsinin qalibi olubdur.

**Babayev Elşad İlham oğlu-655 bal.**

Siyəzən şəhər C. Cabbarlı adına 1 saylı tam orta məktəbi bitirib. Polis Akademiyasının I kurs tələbəsidir.

**Babayeva Nəzrin Seyran qızı-652 bal.**

Siyəzən şəhər M. Müşfiq adına 2 saylı tam orta məktəbi bitirib. Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinin I kurs tələbəsidir.

**İsmayılova Zərifə Fəzadir qızı-646 bal.**

Siyəzən şəhər Ş. İsmayılov adına 3 saylı tam orta məktəbi bitirib. Azərbaycan Dillər Universitetinin İngilis dili müəllimliyi fakültəsinin I kurs tələbəsidir.

**Əliyeva Fidan Rauf qızı-643 bal.**

Siyəzən şəhər Ş. İsmayılov adına 3 saylı tam orta məktəbi bitirib. Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinin I kurs tələbəsidir. «Əlaçı» televiziya müsabiqəsinin qalibi olubdur.

**Cabbarlı Sənan Taləddin oğlu-642 bal.**

Siyəzən şəhər M. Müşfiq adına 2 saylı tam orta məktəbi bitirib. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Neft-qaz mühəndisliyi fakültəsinin I kurs tələbəsidir.

**Bağırova Rəmziyyə Şahin qızı-636 bal.**

Siyəzən şəhər M. Müşfiq adına 2 saylı tam orta məktəbi bitirib. Bakı Dövlət Universitetinin riyaziyyat fakültəsinin I kurs tələbəsidir.

**Dəmirova Reyhanə Pərvin qızı-623 bal.**

Siyəzən şəhər Ş. İsmayılov adına 3 saylı tam orta məktəbi bitirib. Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinin I kurs tələbəsidir.

**Şirinova Lalə Nadir qızı-621 bal.**

Siyəzən şəhər C. Cabbarlı adına 1 saylı tam orta məktəbi bitirib. Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinin I kurs tələbəsidir.

**Məlikli Şahin Əliskəndər oğlu-608 bal.**

Siyəzən şəhər R. Ramazanov adına 5 saylı tam orta məktəbi bitirib. Bakı Dövlət Universitetinin hüquqşünaslıq fakültəsinin I kurs tələbəsidir.

**Əhmədova Gülər İlkin qızı-606 bal.**

Siyəzən şəhər C. Cabbarlı adına 1 saylı tam orta məktəbi bitirib. Bakı Dövlət Universitetinin hüquqşünaslıq fakültəsinin I kurs tələbəsidir.

**Cəfərova Sevinc Roman qızı-602 bal.**

Siyəzən şəhər M. Müşfiq adına 2 saylı tam orta məktəbi bitirib. Bakı Dövlət Universitetinin fizika fakültəsinin I kurs tələbəsidir.

**Səfərli İlkin Cahangir oğlu-600 bal.**

Siyəzən şəhər 6 saylı məktəb liseyi bitirib. Bakı Dövlət Universitetinin dünya iqtisadiyyatı fakültəsinin I kurs tələbəsidir.

**Nəzərova Şahanə Mais qızı**-Siyəzən şəhər C. Cabbarlı adına 1 saylı tam orta məktəbdə oxuyur. Sərbəst güləş üzrə dünya birinciliyinin gümüş mükafatçısıdır. O, olimpiya oyunlarına lisenziya qazanmışdır.

Redaktor
İlyas İLYASOV

Təsisçilər:
Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı və redaksiyanın jurnalist kollektivi

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır
Qeydiyyat № 314
Redaksiyanın ünvanı:
Siyəzən şəhəri, Şəhriyar küçəsi, 1ª

Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur

Sifariş 2858
Tiraj 500
"Kapitalbank"ın Siyəzən filialı
AZ 20 AİİB
33080019445500250155
kod 200554
VÖEN 7100046791
telefon: 304-04-83